# Mədəni irsimiz –
# "Azərbaycan 2020: gələcəyə baxış"

*"Odlar yurdu" adlandırılan qədim məmləkətimizin ərazisində bu günədək qalan və tarixin bütün mərhələlərini əhatə edən çoxsaylı abidələr böyük mədəniyyətin kiçik bir hissəsidir...*

Azərbaycanın çox qədim tarixini, keçmişini və bu gününü işıqlandıran tarix və mədəniyyət abidələri mənəvi aləmin misilsiz yadigarı, onun qədim, estetik düşüncələrinin təcəssümü, maddi və mənəvi inciləridir. Bu gün xatırlamaq xoşdur ki, hər daşında, kərpicində müxtəlif dövrlərin izi, nişanəsi qalan memarlıq abidələrimizin səsi, sorağı zaman-zaman uzaq-uzaq diyarlara çatıb. Dünyanın bir çox səyyahları bu sənət incilərini – xalqımızın qəhrəmanlığı, sənətkarlığı, təfəkkürü və estetik duyumunu özündə əbədiləşdirən abidələri görməyə can atıblar. Təsadüfi deyildir ki, həmin sənət örnəkləri vasitəsilə çağdaş nəsil öz qədim əcdadlarının bədii memarlıq axtarışlarını görür və haqlı olaraq onlarla öyünür.

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun şəkildə ölkəmizin ərazisində dövlət mühafizəsinə götürülmüş bu daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü 2001-ci ildə təsdiq edilmiş, yeni üzə çıxarılmış abidələr mütəmadi şəkildə həmin siyahıya əlavə olunmuşdur.

Təsdiqlənmiş siyahıya görə, respublikamızda 6308 maddi mədəniyyət abidəsi mühafizə edilir, 27 dövlət tarix-mədəniyyət, memarlıq, bədii və etnoqrafiya qoruğu fəaliyyət göstərir. Təbii ki, ərazimizdə bu günəcən qalan və tarixin bütün mərhələlərini əhatə edən çoxsaylı abidələr böyük mədəniyyətin kiçik bir hissəsidir. Tarixi mənbələrin məlumatları, arxeoloji araşdırmaların nəticələri və s. göstərir ki, mədəni irsimiz tarixboyu itkilərə məruz qalıb. Həmin itkilər abidələrin zaman axarında zəifləyib təbii dağıntıya uğramasından daha çox, saysız müharibələr, yadellilərin basqınları və biganəlik nəticəsində baş verib. Məlum səbəbdən Azərbaycanın əlimizdə olan tarix və mədəniyyət irsinin qorunması son dərəcə ciddi və çətin məsələdir.

Məhz buna görə də ölkəmiz 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini elan etdikdən sonra mədəniyyət sahəsində də müstəqil siyasət yeritməyə başlamışdır. Hazırda dövlətimizin müvafiq orqanlarının fəaliyyətində mədəni irsin qorunması mühüm yer tutur. Bu vacib işə dövlət qayğısı son vaxtlar kifayət qədər artırılmışdır. Azərbaycan Respublikası Milli Məclisində "Mədəniyyət haqqında", "Tarix haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Muzeylər haqqında", "Kitabxana işi haqqında", "Kinematoqrafiya haqqında", "Arxiv işi haqqında" qanunlar qəbul olunmuşdur. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin bu qanunun tətbiqi barədə fərmanına əsasən, mədəniyyət sərvətlərinin ölkədən çıxarılmasına razılıq verilməsi Mədəniyyət və Turizm Nazirliyinə həvalə edilmişdir. Mədəni dəyərlərin qeyri-qanuni yolla sərhədlərimizdən kənara aparılmasının qarşısını almaq məqsədilə nazirlikdə yüksəkixtisaslı mütəxəssislərin iştirakı ilə ekspert komissiyaları yaradılmışdır. Əsrlərin sınağından keçmiş, təbii təsirlərə məruz qalmış və nəticədə qəza vəziyyətinə düşmüş tarix və mədəniyyət abidələrinin müəyyən qismində təxirəsalınmaz konservasiya və bərpa işləri aparılmışdır. Son illər ərzində respublika ərazisində ölkə başçısı tərəfindən "Yanardağ" dövlət tarix-mədəniyyət və təbiət qoruğu, "Atəşgah məbədi" dövlət tarix-memarlıq qoruğu", "Keşikçidağ" dövlət tarix-mədəniyyət qoruğu və "Xınalıq" dövlət tarix-memarlıq və etnoqrafiya qoruğunun yaradılması bunun bariz nümunəsidir.

> **Təbii ki, respublikamızın dünya səviyyəsində nüfuzlu qurumlara üzv olması və mədəni irs sahəsində beynəlxalq müqavilələrə tərəfdar çıxması daşınmaz mədəni irsin qorunması istiqamətində tədbirlərin davamlı inkişafına da münbit zəmin yaratmışdır. Belə ki, Azərbaycan müstəqil dövlət kimi 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına qəbul edilmiş, Beynəlxalq Muzeylər Şurası – İKOM-un Azərbaycan Milli Komitəsi təsis olunmuş, 1993-cü ildə YUNESKO-nun mədəni irsin qorunmasına dair Haaqa Konvensiyasını, 1997-ci ildə isə Paris Konvensiyasını imzalamışdır. Ölkəmizdə bu konvensiyaların tələblərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə milli komissiyalar fəaliyyət göstərir.**

1993-cü ildə qeyri-siyasi təsisat – türkdilli ölkələrin mədəniyyət və incəsənət sahəsində əməkdaşlığı üzrə TÜRKSOY Beynəlxalq Təşkilatı yaradılmışdır. Adıçəkilən qurum həm də əsas vəzifələrinə sadiq qalaraq bütün türk xalqlarına məxsus mədəni sərvətlərin, tarix və mədəniyyət abidələrinin müəyyənləşdirilməsi və mühafizəsi ilə əlaqədar mühüm tədbirlər görür...

Bununla belə, çoxsaylı beynəlxalq təşkilatların şaxəli fəaliyyətinə rəğmən, ermənilər işğal etdikləri ərazilərdə xalqımızın tarixi keçmişini və bu gününü əks etdirən maddi-mədəniyyət nümunələrini planlı surətdə məhv edir, yaxud özününküləşdirirlər. Belə ki, işğal olunmuş ərazidə qalmış 500-dək tarix-memarlıq, 100-dən artıq arxeoloji abidə, fondlarında minlərlə əşyanın toplandığı 22 muzey və 4 rəsm qalereyası istisnasız şəkildə mənəvi və fiziki terrorla üzləşmişdir. Acınacaqlı haldır ki, həmin sərvətlərin məhv edilməsi və Ermənistana daşınması siyasəti bu gün də davam etdirilir.

Hələ 1977-ci ildə Azərbaycan hökumətinin qərarına əsasən qoruq elan edilmiş Şuşa şəhəri 23 ildən çoxdur ki, təcavüzkarların amansız talanına məruz qalır. Məscidlər dağıdılmış, buradakı qədim qəbiristanlıq, böyük Azərbaycan şairi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin türbəsi, Ağdamda Pənahəli xanın imarəti, Laçında Həmzə Sultan və Soltan Əhməd sarayları, ziyarətgah və ibadətgahlar, mağaralar, daş heykəllər, qədim qəbirlər, kurqanlar, tarixi abidə olan yaşayış binaları yerləyeksan edilmiş, daşınması mümkün sərvətlər isə Ermənistana aparılmışdır.

Ərazidə azərbaycanlıların ulu babaları albanlara məxsus abidələr məhv edilir, alban məbədləri isə erməniləşdirilir. Ağdam, Qubadlı, Zəngilan, Laçın, Füzuli və Cəbrayıl rayonları ərazisindəki məscidlər yandırılıb, XVII–XVIII əsr memarlıq abidələrinə – karvansaralara ciddi xəsarət yetirilib.

Ərazidəki ilk insan məskənlərindən sayılan məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərlik təpə abidələri hərbi məqsədlərlə istifadə edilir. Məşhur Xocalı kurqanları, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlar əsl barbarlıqla qarşılaşmışdır. İşğalçılar buradakı muzeyləri də dağıtmış və talamışlar.

Keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək muzeyi şəhərin bombardmanı zamanı yerləyeksan edilib, dünya şöhrətli Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin 13 minədək, Laçın tarix-diyarşünaslıq muzeyinin 5 mindən çox qiymətli və nadir əşyası Ermənistana daşınıb.

Şuşa Tarix Muzeyinin (5 minədək əşya), Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi Şuşa filialının, Dövlət Qarabağ Tarixi Muzeyinin (1000-dək əşya), professional Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəylinin (300-dən çox əşya), vokal


Pir Hüseyn xanəgahı


Qobustan dövlət tarixi-bədii qoruğu


Möminə xatun türbəsi

sənətimizin əsasını qoymuş böyük müğənni Bülbülün (400-dək əşya), görkəmli musiqiçi və rəssam Mir Möhsün Nəvvabın (100-dən çox əşya) xatirə muzeylərinin, Ağdam (2 mindən çox əşya), Qubadlı (3 mindən çox əşya), Zəngilan (6 minədək əşya) tarix-diyarşünaslıq muzeylərinin fondları da qarət edilib. Qurban Pirimovun xatirə muzeyi, Cəbrayıl, Füzuli, Yaloba tarix-diyarşünaslıq muzeyləri düşmən vandallığı ilə üzləşib.

**Erməni təcavüzkarlarının çapıb-taladıqları muzeylərdə Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltəraşlıq əsərləri, xalçalar, xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları, digər qiymətli materiallar saxlanılırdı. Şuşa, Laçın və Qubadlı rəsm qalereyalarının Azərbaycanın görkəmli rəssam və heykəltəraşlarının əsərlərindən ibarət fondları da qarətə məruz qalıb.**

İşğalçıların vəhşiliklərini bir fakt daha bariz göstərir. Onlar Azərbaycan musiqisinin böyük xadimləri Üzeyir Hacıbəylinin və Bülbülün, habelə şairə Xurşidbanu Natəvanın heykəllərini Şuşa şəhərindən Ermənistan ərazisinə apararaq bütün əxlaq normalarına zidd şəkildə, ağılsızcasına güllələmiş və ağır texnika vasitəsilə zədələmişlər. Sonralar həmin abidələr böyük çətinliklərlə əldə edilərək Bakıya gətirilib və Milli İncəsənət Muzeyinin həyətində yerləşdirilərək ölkə vətəndaşlarına və paytaxtımıza təşrif gətirən xarici qonaqlara nümayiş olunur.

1992-ci ildən başlayaraq erməni təcavüzkarları tərəfindən mədəniyyət sərvətlərimizin talan edilməsi və Ermənistana aparılması barədə YUNESKO-ya, Beynəlxalq Muzeylər Şurasına dəfələrlə məlumat verilsə də, bu istiqamətdə, demək olar ki, heç bir iş görülməmiş, müraciətlərimiz əsasən nəticəsiz qalmışdır. 1994-cü ildə YUNESKO-nun nümayəndələri mədəni dəyərlərimizə dəyən ziyanın həcmini öyrənmək məqsədilə respublikamıza gəlmiş, onlara lazımi materiallar, o cümlədən muzey, rəsm qalereyası və memarlıq abidələrinin siyahıları, muzey əşyaları və abidələrinin fotoşəkilləri, digər sənədlər verilmişdir. YUNESKO bunun əsasında 1995-ci ilin fevralında Ermənistanın hakimiyyət orqanlarına müraciət qəbul etmişdir. Bu müraciətdə Ermənistanın hakimiyyət orqanlarından tələb olunmuşdur ki, silahlı münaqişələr zamanı mədəniyyət sərvətlərinin qorunmasına dair Haaqa Konvensiyasına uyğun tədbirlər görsünlər...

Bütövlükdə, arxada qalan illərin hər biri abidələrimizin qorunması və təbliğinə istiqamətlənmiş mühüm qərarların qəbulu ilə yadda qalır. Bu sırada, təbii ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 18 mart tarixli 74 saylı qərarı ilə "Abidə qoruqların nümunəvi əsasnaməsi"nin təsdiqi, 2000-ci ildə "İçərişəhər" dövlət tarix-memarlıq qoruğunun, o cümlədən "Şirvanşahlar" sarayı kompleksi və Qız qalasının, 2007-ci ildə "Qobustan" dövlət tarix-bədii qoruğunun YUNESKO-nun "Dünya mədəni irs siyahısı"na daxil edilməsi, ölkə başçısı tərəfindən unikal əhəmiyyəti nəzərə alınaraq "Qobustan" dövlət tarix-bədii qoruğunun ərazisində yerləşən tarixi və mədəni sərvətin qorunması haqqında" 2007-ci il 11 iyun tarixli 2213 saylı sərəncam imzalanması, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 6 noyabr tarixli 172 saylı qərarı ilə "Qobustan" dövlət tarix-bədii qoruğuna "Milli qoruq" statusu verilməsi, qoruğun yeni inzibati binasının tikilməsi və müasir texnologiyalarla təchiz edilmiş ekspozisiyasının yaradılması və s. xüsusilə diqqət çəkir.

Ötən müddət ərzində həmçinin "İçərişəhər" dövlət tarix-memarlıq və Qobustan milli tarix-bədii qoruqlarında yerləşən abidələrin qorunması təmin edilmiş, əraziləri abadlaşdırılmış, "Qala" dövlət tarix-etnoqrafiya qoruğu nəzdində Heydər Əliyev Fondu tərəfindən "Qala" arxeoloji-etnoqrafik muzey kompleksi yaradılmışdır. Bu qoruqların Azərbaycanın tarixi keçmişini qoruyub saxlamaqla yanaşı, hazırda turizm mərkəzlərinə çevrilməsi, "Ataşgah məbədi" dövlət tarix-memarlıq qoruğunun mühafizəsi və maddi-texniki təminatı barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 1 iyul tarixli 365 nömrəli sərəncamına əsasən qoruğun konservasiya və bərpası üzrə layihə-smeta sənədlərinin hazırlanması, ərazidə arxeoloji tədqiqat işlərinin aparılması və "Ataşgah" tarixi muzey mərkəzinin yaradılması, ərazidə genişmiqyaslı bərpa-konservasiya, elmi tədqiqat, yenidənqurma və abadlaşdırma işlərinin aparılması da təqdirəlayiq məqamlardandır.

**Bunlardan başqa, ölkə ərazisində yerləşən bir sıra abidələrdə, o cümlədən Bakı şəhərində "Şirvanşahlar" sarayı kompleksi, "Məhəmməd" məscidi, "Kiçik Karvansaray", "Bazar meydanı", "Məktəb-məscid", Şəki rayonunda "Şəki xan sarayı", qala divarları, Kiş Alban məbədi, "Aşağı Karvansaray", "Şəkixanovların evi", Quba rayonunun Xınalıq kəndində Əbu-Müslüm və Xıdır Nəbi məscidləri, Naxçıvan şəhərində "Mömünə xatun", Şərur rayonunda "Qudi-xatun" türbələri, Culfa rayonunda "Xanəgah" memarlıq kompleksi, Babək rayonunda "Əshab-ül-Kəhf" ziyarətgahı dini mədəni abidə kompleksi, Qusar rayonunda "Şeyx Cüneyd" türbəsi, Qax rayonunda "Kürmük" məbədi, "Sumuqqala" abidəsi, Gəncə şəhərində Nizami Gəncəvi məqbərəsi, Hacıqabul rayonunda "Pir Hüseyn" xanəgahı və digər mühüm tarixi-memarlıq əhəmiyyəti olan abidələrdə bərpa-konservasiya işləri başa çatdırılmış, bəzi abidələrin ətrafında sel sularından mühafizə üçün drenaj sistemi qurulmuş, ərazisi işıqlandırılmış, qoruqlara gedən magistral yollarda informasiya lövhələri və yol nişanları quraşdırılmışdır...**

Milli-mədəni dəyərlərimizin qorunması istiqamətində reallaşdırılan bu layihələr, gerçəkləşdirilən çoxsaylı tədbirlər hər birimizdə xüsusi fərəh hissi doğurmaqla yanaşı, həm də belə bir inam təlqin edir ki, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanan "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014–2020-ci illər üzrə Dövlət Proqramı"nda əksini tapan müddəalar bundan sonra da uğurla həyata keçiriləcək, həmin istiqamətdə aparılan bütün islahatlar maddi və mənəvi incilərimizin mühafizəsinin müasir səviyyədə təşkilinə, bərpası, öyrənilməsi, təbliği və inkişafına yönəldiləcək, sözügedən sahədə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, zərurət yarandıqda beynəlxalq mütəxəssislərin cəlb edilməsi daim diqqətdə saxlanılacaqdır.


Kiş Alban məbədi


Sumuqqala


Şirvanşahlar sarayı


Mərdəkan qalası

Başqa cür ola da bilməz! Çünki memarlıq abidələrimizin çoxu dünya mədəniyyəti inciləri sırasına daxildir: əvəzsiz sənət nümunələri olan qədim Qafqaz Albaniyası abidələri, Naxçıvanda ucalan – Azərbaycan memarlığının atası, dahi Əcəminin yaratdığı türbələr, Bərdədəki türbələr, Bakıdakı Şirvanşahlar kompleksi və məşhur Qız qalası, Şəkidəki xan sarayı və başqaları dünya sivilizasiyaları arasında layiqli yer tutan, xalqımıza şöhrət gətirən misilsiz sənət örnəkləridir.

Bu gün respublikamıza gələn qonaqların sayı-hesabı yoxdur. Dost və yaxud düşmən mövqeyində durmalarından asılı olmayaraq onlar görürlər ki, Azərbaycan maddi-mədəniyyət abidələri ilə zəngin bir ölkədir. Burada qədim daş dövründən başlayaraq son orta əsr dövrünə qədər çoxlu maddi-mədəniyyət qalıqları vardır. Onlardan ibtidai insanların yaşadıqları mağaralar, qədim yaşayış yerləri, siklopik tikililər, kurqanlar, qaya üzərində rəsmlər, müxtəlif dövrlərə aid istehkam sədləri, orta əsr şəhər yerlərinin xarabaları, körpülər, türbələr və bir çox başqa tipli abidələri göstərmək olar. Bu abidələrin tədqiqi nəticəsində Azərbaycanın qədim və orta əsrlər tarixi və mədəniyyətini öyrənmək mümkündür.

Bütün sadalananlar bir daha sübut edir ki, Azərbaycan xalqı dünyanın qədim və mədəni xalqlarından biridir. Təsadüfi deyil ki, tariximizin müxtəlif dövrlərinə aid maddi-mədəniyyət abidələrini görəndən sonra Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı, akademik İvan Meşşaninov heyrətini gizlədə bilməmiş və heyranlığını hər birimizdə iftixar hissi doğuracaq sözlərlə ifadə etmişdir: "Azərbaycan başdan-başa zəngin və təbii muzeydir".

Əsrlərin sərt sınağına mətanətlə sinə gərərək əcdadlarımızın bu günümüzə gəlib çıxan miraslarını qorumaq və təbliğ etmək hər birimizin müqəddəs vətəndaşlıq borcumuzdur...

Yaşar Vəliyev